www.525.az Facebook.com/525-ci qəzet - 525.az

# "Heydər Əliyev və mədəniyyət" mövzusunda dəyirmi masa keçirilib

Fevralın 27-də Azərbaycan Gənc Tamaşaçılar Teatrında Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibəti ilə "Heydər Əliyev və mədəniyyət" mövzusunda dəyirmi masa təşkil edilib.

Teatrın mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru Naidə İsmayılzadə, teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, Səbail rayon YAP təşkilatının sədri Muxtar Nağıyev, teatrşünas Məryəm Əlizadə, sənətşünas Vidadi Qafarov, A.Şaiq adına mənzil-muzeyinin direktoru Ülkər Talıbzadə, yazıçı-dramaturq İlqar Fəhmi, Xalq artisti Yasin Qarayev, Əməkdar artist Nicat Kazımov, habelə yaradıcı və inzibati heyət üzvləri iştirak ediblər.



Tədbiri giriş sözü ilə teatrın direktoru Naidə İsmayılzadə açaraq qonaqları salamlayıb. Heydər Əliyevin parlaq şəxsiyyətindən, sənətə, teatra, ümumilikdə yaradıcı insanlara olan diqqət və qayğısından bəhs edib.

Daha sonra teatrın baş rejissoru Mehriban Ələkbərzadə Heydər Əliyevin 100 illiyinin ölkə səviyyəsində qeyd olunmasının önəmindən, dəyirmi masanın əhəmiyyətindən bəhs edib.

Tədbirin davamında qonaqlar çıxış edərək Ulu öndərlə bağlı maraqlı xatirələrini, bu xatirələrin yaratdığı xoş təəssüratları bölüşüblər.